RƏSMİ DÖVLƏT QƏZETİ





# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 273 (8589) ŞƏNBƏ, 26 dekabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyevin Qələbəsinin təntənəsi olan tarixi səfər

## “Qarabağ Azərbaycandır!” bəyanatının növbəti nidası Zəngilan və Qubadlıda qoyuldu

**İkinci Qarabağ müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələndi. 44 gün davam edən döyüşlər və qazanılan möhtəşəm Qələbə Prezident İlham Əliyevin yenilməz qətiyyətini, Ali Baş Komandanı olduğu ordumuzun qüdrətini və xalqımızın milli birliyini bütün dünyaya nümayiş etdirdi. 30 ilə yaxın düşmən tapdağında olan torpaqlarımız artıq işğaldan azaddır, onların hamısı yenidən qurulacaq, əvvəlki şöhrətlərini bərpa edəcəklər. İşğaldan azad olunmuş bütün şəhər və kəndlərimizdə həyat canlanacaq.**

### Düşməni məhv edərək, zəfər çalaraq qayıtmışıq

Azad olunmuş Cəbrayıl, Füzuli və Ağdam rayonlarından sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan və Qubadlı rayonlarına səfər etdilər. Əvvəlkilər kimi bu da sıradan bir səfər deyildi. Bu, İlham Əliyevin Müzəffər Ali Baş Komandan kimi işğaldan azad etdiyi rayonlarımıza tarixi səfəri idi. Bu, “Qarabağ Azərbaycandır!” deyən və onu reallığa çevirən İlham Əliyevin qələbəsinin təntənəsi olan səfər, xalqımızın 44 günlük müharibədəki Zəfər sevincinin məntiqi davamı idi.

Bu səfər həm də dönüş idi, doğma torpaqlarımıza Böyük Qayıdışın rəmzi, gələcəyə baxışımızın ifadəsi idi. “Otuz il ərzində işğal altında olan torpaqlar öz sahiblərinə qayıdıb. Biz qayıtmışıq. Düşməni məhv edərək, zəfər çalaraq qayıtmışıq”, - deyən İlham Əliyev bir daha Qarabağdan torpaqlarımızın azadlığının, onun əsl sahiblərinin artıq qayıtdığının müjdəsini verdi bütün dünyaya.

İlham Əliyev bu dəfə Azərbaycan bayrağını Qubadlıda və Zəngilanda ucaltdı. Müzəffər Ali Baş Komandan bir daha bütün dünyaya göstərdi ki, işğaldan azad olunmuş bu torpaqlar Azərbaycan dövlətinin ərazisidir. Beləliklə, “Qarabağ Azərbaycandır!” bəyanatının növbəti nidası Zəngilan və Qubadlıda qoyuldu.

### Biz işğalçı düşmənlə yox, həm də vəhşilərlə üz-üzə qalmışdıq

Cəbrayıldan Zəngilan və Qubadlıya doğru uzanan yollarda Mehriban Əliyevanın etdiyi çəkilişlər bir daha məlum həqiqətləri bütün dünyaya nümayiş etdirdi. Bəli, biz işğalçı, terrorçu düşmənlə yox, həm də vandallarla, vəhşilərlə üz-üzə qalmışdıq. Tarixdən də bəllidir ki, bütün müharibələr zamanı yaşayış məskənlərini, maddi mədəniyyət nümunələrini dağıdanlar yalnız və yalnız mədəni inkişafdan geri qalan, yırtıcı şüur və təfəkkürə malik barbarlar olublar.

30 ilə yaxın idi torpaqlarımızı işğal altında saxlayan qüvvələr isə müasir dövrün barbarlarıdır. Çünki işğal olunmuş kənd və şəhərlərimizin xarabalıqlara çevrilməsi, yağmalanması, təbiətimizə qəsd edilməsi barbarlıqdan, vəhşilikdən başqa bir şey deyil. Düşmən xalqımıza məxsus maddi mədəniyyət abidələrini dağıdıb, məscidlərimizi təhqir edib. Bu gün Ermənistanın müdafiəsinə qalxan siyasi mərkəzlər bunları görməzliyə vurmaqla isə elə öz barbarlıqlarını nümayiş etdirirlər.

“Cəbrayıldan başlayaraq ta Qubadlıya qədər, Zəngilana qədər azad edilmiş torpaqlardan gəlmişəm. Bir dənə də salamat bina yoxdur. Bütün binalar sökülüb, dağıdılıb, kəndlərimizin adları dəyişdirilib, eybəcər adlar verilib, məscidimiz bax, bu günə düşüb. Cavabını verəcək Ermənistan, cavabını verəcək! Veribdir, qovmuşuq torpaqlarımızdan, məhv etmişik onları, onların ordusunu. Əminəm ki, bu görüntülərdən sonra bizə irad tutmağa çalışan “beynəlxalq məmurlar” öz dillərini qarınlarına qoyacaqlar. Biz isə bu məscidi bərpa edəcəyik və bizim vətəndaşlar gəlib burada ibadət edəcəklər, buradan azan səsi gələcək, bu torpaqlara həyat qayıdacaq”, - deyə Prezident İlham Əliyev Zəngilanda mənfur düşmən tərəfindən dağıdılan məscidlə tanışlıqdan sonra bildirdi.

*Ardı 2-ci səh.*

# Rusiyanın məşhur “Vedomosti” nəşri Prezident İlham Əliyevi “İlin siyasətçisi” seçib

**Rusiyanın məşhur “Vedomosti” nəşri altı nominasiya üzrə ilin personası ilə bağlı illik xüsusi layihəsinin nəticələrini dərc edib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nəşrin oxucuları arasındakı səsvermədə “İlin siyasətçisi” seçilib.

Nəşr yazır: “İlham Əliyevi haqlı olaraq ordusu 2020-ci ildə inamlı hərbi qələbə qazanan, region miqyasına görə isə əsl triumf əldə edən yeganə lider adlandırmaq olar”.

Qeyd edək ki, “İlin siyasətçiləri” nominasiyasının namizədləri siyahısında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, Belarus Prezidenti Aleksandr Lukaşenko da olub.

ABŞ-ın yeni seçilmiş Prezidenti Co Bayden isə redaksiya seçimi əsasında “İlin siyasətçisi” elan edilib.

# Səfərbərlik üzrə hərbi xidmətdən tərxisetmə haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 25-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında” Azərbaycan Respublikası Qanununun 18.1-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 sentyabr tarixli 2280 nömrəli Sərəncamına əsasən hərbi xidmətə çağırılmış hərbi qulluqçular 2020-ci il dekabrın 25-dən 2021-ci il aprelin 15-dək mərhələli şəkildə səfərbərlik üzrə hərbi xidmətdən tərxis edilsinlər.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti bu Sərəncamın 1-ci bəndinin icrası barədə Azərbaycan Respublikasının Prezidentini mütəmadi olaraq məlumatlandırsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2020-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 963 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Koronavirusla Mübarizəyə Dəstək Fondunun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 963 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 239) ilə təsdiq edilmiş “Koronavirusla Mübarizəyə Dəstək Fondunun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2-ci bəndə “hesabı” sözündən sonra “, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Azərbaycan Respublikasının Mərkəzi Bankında və kredit təşkilatlarında Azərbaycan manatı ilə və xarici valyutalarda bank hesabları” sözləri əlavə edilsin;

1.2. 2.4-cü bənddə “2020” rəqəmləri “2021” rəqəmləri ilə əvəz edilsin;

1.3. 2.5-ci bənddə “hesabında” sözü “və bank hesablarında” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 dekabr 2020-ci il*

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının “Füzulinin azad olunmasına görə” medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıdakı hərbi qulluqçuları “Füzulinin azad olunmasına görə” medalı ilə təltif edilsinlər:

Mirzəyev Hikmət İzzət oğlu - general-leytenant
Bərxudarov Mayis Şükür oğlu - general-mayor
Həsənov Hikmət Hüseyn oğlu - general-mayor
Hüseynov Tofiq Vaqif oğlu - general-mayor
İslamzadə Namiq Sərəfruz oğlu - general-mayor
Kərimov Anar Təvəkkül oğlu - general-mayor
Məmmədov Zaur Sabir oğlu - general-mayor
Seyidov Kənan Əlihüseyn oğlu - general-mayor
Ağagülov Şəhriyar Etibar oğlu - polkovnik
Ağammədov Baris Əmirxan oğlu - polkovnik
Atakişiyev Eldar Aleksandr oğlu - polkovnik
Babayev Emil Sabir oğlu - polkovnik
Babayev Münasib Balaca oğlu - polkovnik
Cahangirov Ələkbər Məhəmməd oğlu - polkovnik
Əhmədov Bahadır Allahverdi oğlu - tibb xidməti polkovniki
Əhmədov Etibar İsabala oğlu - polkovnik
Əliyev Zəfər Baloğlan oğlu - polkovnik
Əzizov Firudin Novruz oğlu - polkovnik
Həmidov Şükür Nəriman oğlu - polkovnik (ölümündən sonra)
Hüseynov Telman Əsgər oğlu - polkovnik
İbrahimov Elman Adil oğlu - polkovnik
İsrayılov Raqif İbadulla oğlu - polkovnik
Quliyev Vilayət Bərxuda oğlu - polkovnik
Quliyev Zaur Hikmət oğlu - 1-ci dərəcəli kapitan
Quluyev Mais İsvəndiyar oğlu - polkovnik
Məmmədov Vaqif Şahbaz oğlu - polkovnik
Mirzəliyev Elşad Həsənqulu oğlu - polkovnik
Mirzəyev Aşur Hacıağa oğlu - polkovnik
Mirzəyev İntiqam Fərəməz oğlu - polkovnik
Mövlanov Nizami Bəydəmir oğlu - polkovnik
Musayev Telman Qurban oğlu - polkovnik
Mustafayev Əli Mustafa oğlu - polkovnik
Namazov Eldəniz Firuddin oğlu - polkovnik
Nəciyev İlqar Rəşid oğlu - polkovnik
Nəsibov Bayram Nəsib oğlu - polkovnik
Nəzərov İlqar Eldar oğlu - polkovnik

*Ardı 12-ci səh.*

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının “Zəngilanın azad olunmasına görə” medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Zəngilan rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıdakı hərbi qulluqçuları “Zəngilanın azad olunmasına görə” medalı ilə təltif edilsinlər:

Mehdiyev İlham İsmayıl oğlu - general-leytenant
Nağıyev Əfqan Vəli oğlu - general-leytenant
Bağırov Ramin Sabir oğlu - general-mayor
Bərxudarov Mayis Şükür oğlu - general-mayor
Məhərrəmov Aqşin Ramiz oğlu - general-mayor
Rzayev Mübariz Balağa oğlu - general-mayor
Sultanov Ağamir Əzizxan oğlu - general-mayor
Tağıyev Rəsul Afiq oğlu - general-mayor
Abbasov Klos İslam oğlu - polkovnik
Abbasov Qiyas Abbas oğlu - polkovnik
Abdullayev Oruc Mehralı oğlu - polkovnik
Cəfərov Ceyhun Sədulla oğlu - polkovnik
Ələkbərov Babək Mürsəl oğlu - polkovnik
Əliyev Misir Əziz oğlu - polkovnik
Hüseynov Oktay Ənvər oğlu - polkovnik
İbrahimov Elman Adil oğlu - polkovnik
İsrayılov Raqif İbadulla oğlu - polkovnik
Qurbanov Babək Vahid oğlu - polkovnik
Mehrəliyev Sadiq Nadir oğlu - polkovnik
Məmmədov Samir Adil oğlu - polkovnik
Məmmədov Vaqif Şahbaz oğlu - polkovnik
Məmmədov Vüqar Məmmədhüseyn oğlu - polkovnik
Mirzəliyev Elşad Həsənqulu oğlu - polkovnik
Mirzəyev Nəsib Tahir oğlu - polkovnik
Nəsibov Bayram Nəsib oğlu - polkovnik
Orucəliyev Mayis Mirzəyar oğlu - polkovnik
Orucov Etibar Gülabbas oğlu - polkovnik
Osmanov Nazim Əlisman oğlu - polkovnik
Pənahov Elşad İslam oğlu - polkovnik
Rəhimov Rəşad Manaf oğlu - polkovnik
Rzayev Gülməmməd Tofiq oğlu - polkovnik
Abışov Xəyal Elbrus oğlu - polkovnik-leytenant
Ağayev Amil Sədulla oğlu - polkovnik-leytenant
Ağayev Vəlixan Telman oğlu - polkovnik-leytenant
Allahverdiyev Ehtiram Yadulla oğlu - polkovnik-leytenant
Aloyev Abuzər Xamməd oğlu - polkovnik-leytenant
Babayev Qəzənfər Filman oğlu - polkovnik-leytenant
Bağırov Ceyhun Əkbər oğlu - polkovnik-leytenant

*Ardı 12-ci səh.*

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının “Xocavəndin azad olunmasına görə” medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıdakı hərbi qulluqçuları “Xocavəndin azad olunmasına görə” medalı ilə təltif edilsinlər:

Bərxudarov Mayis Şükür oğlu - general-mayor
Həsənov Hikmət Hüseyn oğlu - general-mayor
İslamzadə Namiq Sərəfruz oğlu - general-mayor
Kərimov Anar Təvəkkül oğlu - general-mayor
Rzayev Mübariz Balağa oğlu - general-mayor
Abbasov Klos İslam oğlu - polkovnik
Abdullayev Oruc Mehralı oğlu - polkovnik
Babayev Münasib Balaca oğlu - polkovnik
Əhmədov Etibar İsabala oğlu - polkovnik
Əlövsədov Həsən Əli oğlu - polkovnik
Əzizov Firudin Novruz oğlu - polkovnik
Həşimov Rauf Sabir oğlu - polkovnik
İbrahimov Cabbar Zakir oğlu - polkovnik
İsayev Səid Qurban oğlu - polkovnik
Quliyev Əli Maqsud oğlu - polkovnik
Quliyev Zaur Hikmət oğlu - 1-ci dərəcəli kapitan
Məhərrəmov Etibar İsmayıl oğlu - polkovnik
Məmmədov İlham Vahid oğlu - polkovnik
Məmmədov Vasif Xanlar oğlu - polkovnik
Mirzəyev İntiqam Fərəməz oğlu - polkovnik
Mövlanov Nizami Bəydəmir oğlu - polkovnik
Mustafayev Əli Mustafa oğlu - polkovnik
Nəciyev İlqar Rəşid oğlu - polkovnik
Rzayev Gülməmməd Tofiq oğlu - polkovnik
Şahvəlıdov Elmar Allahverdi oğlu - polkovnik
Yusifli Müzəffər Qəzənfər oğlu - polkovnik
Abdullayev Cavid Binyət oğlu - polkovnik-leytenant
Abdullayev Elman Abdulla oğlu - polkovnik-leytenant
Abdullayev Xəyyam Vaqif oğlu - polkovnik-leytenant
Ağaverdiyev Zamiq Tofiq oğlu - polkovnik-leytenant
Babayev Namiq Əlibala oğlu - polkovnik-leytenant
Bağırov Ceyhun Əkbər oğlu - polkovnik-leytenant
Bayramov Zinhar Beydulla oğlu - polkovnik-leytenant
Bəyalıyev Anar Ələsgər oğlu - polkovnik-leytenant
Cəbiyev Rövşən Zabit oğlu - polkovnik-leytenant
Cümşüdov Habil Rəşid oğlu - polkovnik-leytenant
Dadaşov Əlisəfa Şirvan oğlu - polkovnik-leytenant

*Ardı 13-cü səh.*

## Azərbaycan Respublikasının Şamaxı rayonunun Saqiyan kəndinin Günəşli kəndi adlandırılması haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Şamaxı rayonunun Saqiyan kənd inzibati ərazi dairəsi tərkibindəki Saqiyan kəndi Günəşli kəndi adlandırılsın və Saqiyan kənd inzibati ərazi dairəsi Günəşli kənd inzibati ərazi dairəsi hesab edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2020-ci il*

## "Azərbaycan Respublikasının Şamaxı rayonunun Saqiyan kəndinin Günəşli kəndi adlandırılması haqqında" Azərbaycan Respublikasının 2020-ci il 15 dekabr tarixli 212-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şamaxı rayonunun Saqiyan kəndinin Günəşli kəndi adlandırılması haqqında" Azərbaycan Respublikasının 2020-ci il 15 dekabr tarixli 212-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 90, № 11, maddə 1719; 2020, № 8, maddə 1039) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın 7.3.25.7-ci yarımbəndində "Saqiyan" sözü "Günəşli" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Şamaxı rayonunun Saqiyan kəndinin Günəşli kəndi adlandırılması haqqında" Azərbaycan Respublikasının 2020-ci il 15 dekabr tarixli 212-VIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 dekabr 2020-ci il*

## "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 689; 2001, № 11, maddə 677; 2002, № 5, maddə 237; 2003, № 6, maddə 273, № 8, maddə 419; 2004, № 7, maddə 522, № 10, maddə 784, № 12, maddələr 982, 987; 2005, № 4, maddə 283, № 10, maddə 884; 2007, № 3, maddə 212, № 11, maddə 1051; 2008, № 5, maddələr 346, 347, № 8, maddə 708, № 11, maddə 959; 2009, № 4, maddə 214, № 7, maddələr 503, 511, № 10, maddə 770, № 12, maddə 963; 2010, № 7, maddə 605, № 11, maddələr 942, 943, 961; 2011, № 3, maddə 166, № 7, maddə 613; 2012, № 2, maddə 54, № 3, maddə 192, № 6, maddə 525, № 9, maddə 840, № 11, maddə 1059; 2013, № 3, maddə 233, № 6, maddə 597, № 11, maddələr 1262, 1263, № 12, maddə 1490; 2014, № 5, maddə 463, № 7, maddə 760, № 11, maddə 1375; 2015, № 7, maddə 820, № 12, maddə 1440; 2016, № 2 (II kitab), maddə 222; 2019, № 1, maddə 2; Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 188-VIQD nömrəli Qanunu) əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nın "Şamaxı rayonu" bölməsinin 48.33-cü sətrində hər iki halda "Saqiyan" sözü "Günəşli" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2020-ci il*

## Baş nazir Əli Əsədov Giorgi Qaxariyanı yenidən Gürcüstanın Baş naziri təyin olunması münasibətilə təbrik edib

Dekabrın 25-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Giorgi Qaxariyaya yenidən Gürcüstanın Baş naziri təyin edilməsi münasibətilə təbrik məktubu ünvanlayıb.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, məktubda Giorgi Qaxariyanın yenidən Baş nazir vəzifəsinə təyin edilməsinin ölkəsinin tərəqqisinə və onun beynəlxalq mövqelərinin daha da güclənməsinə xidmət edəcəyinə, iki xalq arasında dostluq ənənələrinə əsaslanan Azərbaycan-Gürcüstan strateji tərəfdaşlıq və hərtərəfli əməkdaşlığının davamlı inkişafına töhfələr verəcəyinə inam ifadə olunub.

Baş nazir Əli Əsədov Giorgi Qaxariyaya Gürcüstan xalqının firavanlığı naminə qarşıdakı fəaliyyətində uğurlar arzulayıb.

## İlham Əliyevin Qələbəsinin təntənəsi olan tarixi səfər

*Əvvəli 1-ci səh.*

Kənd və şəhərlərimizin dağıdılması hər birimizi göynədir. İşğaldan azad edilmiş bütün ərazilərimiz erməni vandallığının qurbanı olub, şəhər və kəndlərimiz viran qoyulub, xalqımıza və dövlətimizə qarşı cinayət törədilib. Prezident İlham Əliyevin qeyd etdiyi dağıdılmış yurd yerlərimizin qiymətləndirilməsi aparılacaq. Bu işə beynəlxalq qurumlar və xarici ekspertlər də cəlb ediləcək. 30 il ərzində bizə vurulmuş ziyan hesablanacaq və bundan sonra beynəlxalq məhkəmələrdə Ermənistana qarşı təzminat davası açılacaq.

### Zəngilan və Qubadlı qələbələri müharibənin gedişinə təsir edən hadisələr oldu

Qeyd edək ki, həm Zəngilan, həm də Qubadlı döyüş yolu ilə işğaldan azad edildi. Döyüşlər zamanı ordumuzun rəşadəti ilə işğalçı qoşunların bu rayonlarda məhv edilməsi və qovulub çıxarılması 44 günlük müharibənin gedişinə təsir edən mühüm hadisələr oldu. Prezident İlham Əliyev tərəfindən bu rayonların azad olunmasının elan edilməsi bütün xalqımız tərəfindən böyük coşqu ilə qarşılandı.

Zəngilan şəhərinin oktyabrın 20-də azad olunmasından sonra ordumuzun növbəti hədəfi Qubadlı idi. Qubadlının azad edilməsi isə strateji baxımdan çox əhəmiyyətli idi. Buna görə də işğalçı qoşunlar Qubadlıdakı müdafiə mövqelərini çox möhkəmləndirmişdilər. Lakin Azərbaycan Ordusunun qarşısında onların heç biri duruş gətirə bilmədi və oktyabrın 25-də Qubadlı işğaldan azad olundu. Həm də Qubadlı əməliyyatı zamanı Azərbaycan Ordusu Ermənistan ərazisindən atəşə tutulurdu. "Ona görə Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu da bu peşəkarlığı, fədakarlığı göstərib. İlk növbədə, şəhərə hakim olan yüksəkliklər götürüldü, ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri götürüldü və strateji yüksəkliklər ələ keçirildi", - deyən Prezident İlham Əliyev ordumuzun Qubadlı əməliyyatı zamanı peşəkarlığını yüksək qiymətləndirib.

Qubadlı rayonunun azad edilməsi ordumuzun bu istiqamətdəki hərbi əməliyyatlar zamanı strateji üstünlüyünü təmin etdi. Bundan sonra Laçın rayonunun Güləbird, Səfiyan və Türklər kəndlərinin azad olunması, eyni zamanda strateji yüksəkliklərin ələ keçirilməsi Laçın dəhlizinin ordumuzun artıq atəş altına düşməsinə yol açdı. Bu strateji uğur ordumuzun digər istiqamətdən Şuşaya doğru irəliləməsinə böyük təkan verdi.

Zəngilan və Qubadlı tarixi Azərbaycan əraziləri, qədim yurd yerlərimizdir. Bu torpaqların hər qarışında, hər addımında zəngin və şərəfli tariximizin, milli-mədəni və mənəvi dəyərlərimizin izi var. Tökülən şəhid qanları ilə bu torpaqlar daha da müqəddəsləşdi. Təzliklə bu rayonların hər birində həyat yenidən canlanacaq və İlham Əliyevin yüksəliş siyasətinin təntənəsi olan Qubadlıda, Zəngilanda və bütün Qarabağda yaşanacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin plenar iclasında 2021-ci ilin dövlət büdcəsinin layihəsi birinci oxunuşda qəbul olunub

Dekabrın 25-də Milli Məclisin növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, parlamentin sədri Sahibə Qafarova iclası açaraq bildirib ki, dünənki iclasda gündəliyin birinci məsələsinin, yəni "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsinə başlanıldı. İndi isə həmin müzakirələr davam etdiriləcək. Spiker deyib ki, büdcə zərfinə daxil olan qanun layihələri ardıcıl surətdə müzakirə edilərək axırda hamısı sıra ilə səsə qoyulacaq.






Məsələ ətrafında çıxış edən komitə sədrləri Siyavuş Novruzov, Hicran Hüseynova, Sadiq Qurbanov, deputatlardan Sabir Rüstəmxanlı, Jalə Əliyeva, Razi Nurullayev, İlham Məmmədov, Tahir Kərimli, Soltan Məmmədov, Elnur Allahverdiyev, Malik Həsənov, Məlahət İbrahimqızı, Sevinc Hüseynova, Qüdrət Həsənquliyev, Kamilə Əliyeva, Səttar Möhbalıyev, Azay Quliyev, Rauf Əliyev, Aydın Hüseynov, Rəşad Mahmudov, Etibar Əliyev 2021-ci ilin büdcə layihəsini yüksək qiymətləndirib, sənədin peşəkarlıqla hazırlandığını bildiriblər. Qeyd olunub ki, növbəti ilin büdcəsində sosialyönümlülük saxlanılıb. Hər bir Azərbaycan vətəndaşı dövlətin diqqət və qayğısı ilə əhatə olunub. Eyni zamanda ölkənin müdafiə məsələləri, ordu quruculuğu, əsgər və zabitlərin məişət şəraitinin yaxşılaşdırılması sahələrinə də lazımi diqqət yetirilib. İşğaldan azad olunan rayonların infrastrukturunun bərpasına geniş yer ayrılıb. Layihədə ölkəmizin iqtisadi uğurları və perspektiv imkanları nəzərə alınıb. Millət vəkilləri 2021-ci ilin dövlət büdcəsini Qələbə büdcəsi kimi dəyərləndiriblər.

Sonra Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, gündəliyin ikinci məsələsi "Dövlət Sosial Müdafiə Fondunun 2021-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsidir.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Dövlət Sosial Müdafiə Fondunun 2021-ci il büdcəsi haqqında" qanun layihəsi ilə bağlı (birinci oxunuş) çıxışında diqqətə çatdırıb ki, Azərbaycan vətəndaşlarının rifahının yüksəldilməsi, xüsusilə aztəminatlı insanların sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin siyasətinin prioritet istiqamətidir. Müzakirəyə təqdim olunan qanun layihəsi də bu niyyəti rəhbər tutaraq tərtib edilib. Qanun layihəsi "Büdcə sistemi haqqında" qanunun tələblərinə və digər normativ-hüquqi aktlara uyğun hazırlanıb. Azərbaycan Respublikasının Hesablama Palatası qanunu ətraflı təhlil edib və barəsində müsbət rəy verib.

Fondun 2021-ci il üçün gəlir və xərcləri bərabər olmaqla 5 146 030 160,0 manat məbləğində proqnozlaşdırılıb. Bu, cari ilin büdcəsinə nisbətən 361,134 milyon manat, və ya 7,55 faiz çoxdur. Fondun gəlirlərinin 68,4 faizi məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar, 31,6 faizi isə dövlət büdcəsindən transfer hesabına təmin ediləcək. Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların 61,59 faizi və yaxud 2 milyard 157 milyon manatı qeyri-büdcə sektorunun payına düşür. Büdcədən maliyyələşən təşkilatlar tərəfindən ödəniləcək məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların proqnozu 1 milyard 345,43 milyon manat təşkil edir. 2021-ci ildə dövlət büdcəsindən transfertin məbləği 1 milyard 631 milyon 530 min manat nəzərdə tutulub. Büdcədən maliyyələşən təşkilatlar tərəfindən ödəniləcək məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların cari ilə nisbətən az, büdcə transfertinin isə cari ilə nisbətən yüksək proqnozlaşdırılmasını koronavirus pandemiyasının iqtisadi fəallığa göstərə biləcəyi mənfi təsirləri nəzərə almaqla ehtiyatlı büdcə siyasəti kimi izah etmək olar.

Qeyd edilib ki, 2021-ci ildə fondun xərclərinin əsas istiqamətlərini əhaliyə əmək pensiyalarının və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətləri üzrə ödənişlər, o cümlədən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə, 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar, dəfn üçün xərclər, habelə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası xətti ilə sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə ödənişlər, pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması üzrə xərclər, Dövlət Sosial Müdafiə Fondunun Mərkəzi Aparatının və onun yerli orqanlarının, habelə DOST Agentliyinin əhaliyə sosial sahədə xidmətinin təşkili üzrə fəaliyyətinin xərcləri təşkil edir.

Fondun növbəti ilə proqnozlaşdırılan ümumi xərclərinin 97,26 faizini əhaliyə ödənişlər təşkil edəcək. Bu məbləğin 4 milyard 880 milyon 40 min manatı əmək pensiyaları, 124,74 milyon manatı isə məcburi dövlət sosial sığorta haqları hesabına verilən müavinətlər hesabına təmin ediləcək. Əmək pensiyalarının sığorta hissəsinin artırılması üçün 338 milyon manat məbləğində vəsait nəzərdə tutulub. Aparılan uğurlu sosial siyasət nəticəsində əmək pensiyalarının orta aylıq məbləği ilbəil artır. 2019-cu ildə bu məbləğ 263,59 manat, 2020-ci ilin birinci yarımilliyində 297,85 manat təşkil edib, 2020-ci ilin sonunda 301,1 manata çatması, 2021-ci ildə 338,89 manat təşkil edəcəyi proqnozlaşdırılır.

Bildirilib ki, qanun layihəsi qanunvericiliyin tələblərinə uyğun hazırlanıb, sosial və büdcə siyasətinin ümumi məqsədlərinə, Azərbaycan Respublikasının büdcə sisteminin prinsiplərinə müvafiqdir və növbəti ildə vətəndaşların sosial rifahının yaxşılaşdırılması üçün etibarlı təminat yaradacaq.

Sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov "Dövlət Sosial Müdafiə Fondunun 2021-ci il büdcəsi haqqında" qanun layihəsi barədə palatanın rəyini təqdim edib. Bildirilib ki, qanun layihəsi "Büdcə sistemi haqqında" qanunun tələblərinə uyğun şəkildə tərtib edilib. Sənəddə əks etdirilmiş gəlir və xərclərin strukturu "Sosial sığorta haqqında" qanunda müəyyən edilmiş istiqamətlərə uyğundur. Qeyd edilib ki, dövlət büdcəsindən ayrılan transfertin məbləği 2021-ci ilin dövlət büdcəsinin müvafiq parametrlərinə uyğundur. Növbəti il üçün fondun büdcəsinin layihəsi üzrə parametrlərin təhlili göstərir ki, 2021-ci ildə nəzərdə tutulan tədbirlərin icra müddəti cari ildə bitməli olan pensiya konsepsiyası üzrə tədbirlərin məntiqi davam etdiriləcəyinə imkan verir ki, bu da müsbət addım olaraq qiymətləndirilməlidir.

Diqqətə çatdırılıb ki, fondun gəlirləri, cari illə müqayisədə 7,6 faiz çox olmaqla proqnozlaşdırılıb. Bu, indiyədək fondun gəlirlərinin ən böyük göstəricisidir. Növbəti ildə fondun xərclərinin əsas hissəsinin əhaliyə ödənişlərə yönəldilməsi nəzərdə tutulub. Pensiyanın ödənilməsi xərclərinin son illərdə artım meyli də həmin xərclərin ümumi daxili məhsulun xüsusi çəkisinə təsir göstərir. Cari və növbəti illər üzrə pensiyanın orta aylıq məbləği üzrə artım dinamikası müvafiq olaraq 14,2 faiz və 9,3 faiz səviyyəsində qiymətləndirilir.

Bildirilib ki, fondun xərclərinin bir istiqaməti də müavinətlərin ödənilməsi ilə bağlıdır. Qanun layihəsinə əsasən, 2021-ci ildə məcburi dövlət sosial sığorta haqları üzrə ödənilən müavinətlərin maliyyələşdirilməsi üçün fondun ümumi xərclərinin 2,4 faizi qədər vəsait nəzərdə tutulub. Məcburi dövlət sosial sığorta haqları üzrə ödənilən müavinətlərin maliyyələşdirilməsi üçün nəzərdə tutulan vəsaitin 23 faiz artırılması proqnozlaşdırılıb.

Sonda palatanın sədri sənəddə dövlət öhdəliklərinin konkret müəyyənləşdirilməsinin məqsədəmüvafiqliyini qeyd edib.

İclasda iştirak edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev çıxışında bildirib ki, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, hər bir ölkə vətəndaşının layiqli həyat səviyyəsinin təmin edilməsi və sosial rifah halının yaxşılaşdırılması dövlət başçısı tərəfindən həyata keçirilən siyasətin əsas prioritetidir. Azərbaycan Prezidenti İlham Əliyevin islahatlar proqramına uyğun olaraq əhalinin sosial müdafiəsi və sosial inkişafı ilə bağlı ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Dövlət Sosial Müdafiə Fondunun 2021-ci il üzrə gəlirləri 5 milyard 146 milyon manat nəzərdə tutulub ki, bu da 2020-ci ilin gəlirlərindən 361 milyon manat və ya 8 faiz çoxdur. Fondun 2021-ci il üçün gəlirlərinin 68 faizi və ya 3,5 milyard manatını məcburi dövlət sosial sığorta haqları hesabına daxilolmalar proqnozlaşdırılır. Büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 1 milyard 345 milyon manat, qeyri-büdcə təşkilatları üzrə isə 2 milyard 157 milyon manat proqnozlaşdırılır.

Fondun növbəti il üzrə xərcləri balanslaşdırılmış şəkildə 5 milyard 146 milyon məbləğində müəyyən edilib. Xərclərin 97 faizi və ya 5 milyard manatı əhaliyə ödənişlərin payına düşür. Bu məbləğin 4,9 milyard manatı əmək pensiyaları, 123 milyon manatı isə sosial sığorta hesabına verilən müavinətlərin payına düşür. 2021-ci il üzrə əmək pensiyalarının maliyyələşdirilməsi üçün ayrılan vəsait 2020-ci illə müqayisədə 337 milyon manat və ya 7 faiz artımla nəzərdə tutulub. Növbəti il üçün pensiyaların orta məbləği 338 manat, yaşa görə pensiyaların isə orta məbləği 370 manat proqnozlaşdırılır. Bu, cari ildəki ödənişlərdən 13 faiz çoxdur.

Diqqətə çatdırılıb ki, Prezidentin fərmanı ilə fond yenidən təşkil olunaraq publik-hüquqi şəxs statusunda yaradılıb. Bu, sosial sahədə inzibati idarəçilik modelindən vətəndaşlara xidmət modelinə keçidin təmin edilməsi, əhaliyə göstərilən xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, vətəndaş məmnuniyyəti prinsipinin rəhbər tutulması məqsədi ilə həyata keçirilən struktur islahatıdır. Bu xidmət modeli DOST mərkəzlərinin timsalında bir ildən çoxdur ki, tətbiq olunur və öz səmərəliliyini sübut edib.

Çıxışının sonunda Sahil Babayev müzakirələr zamanı deputatlar tərəfindən qaldırılan məsələlərə münasibət bildirib.

Müzakirələrdə komitə sədrləri Siyavuş Novruzov, Qənirə Paşayeva, deputatlardan Azər Badamov, Musa Qasımlı, Əli Məsimli, Məlahət İbrahimqızı, Razi Nurullayev fondun fəaliyyəti ilə bağlı öz fikirlərini səsləndiriblər.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "İşsizlikdən Sığorta Fondunun 2021-ci il büdcəsi haqqında" qanun layihəsi barədə (birinci oxunuş) məlumat verib. Bildirilib ki, fondun 2021-ci il büdcəsinin gəlirləri və xərcləri bərabər olaraq 157 769 146 manat məbləğində nəzərdə tutulub. Büdcə gəlirləri cari ildəkinə nisbətən 4,3 faiz, xərcləri isə 10,4 faiz çox olacaq. Layihəyə əsasən, ilin sonuna İşsizlikdən Sığorta Fondunun (o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin) hesablarında ilin sonuna qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, İşsizlikdən Sığorta Fondunun növbəti ildə fəaliyyəti məhz məşğulluq sahəsində cari və növbəti islahatların həyata keçirilməsinə yönələcək. Özünüməşğulluq proqramı 16 mindən artıq ailəni əhatə edəcək.

Müzakirələrdə deputatlar Razi Nurullayev, Fəzail Ağamalı və Aydın Hüseynov məsələyə münasibət bildiriblər.

Sonra "Azərbaycan Respublikasında 2021-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsi barədə (birinci oxunuş) İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib. Bildirib ki, 2021-ci il üçün yaşayış minimumunun müxtəlif sosial qruplar üzrə yuxarı həddinin artırılması təklif olunur. Belə ki, növbəti ildə ölkə üzrə yaşayış minimumu 190 manatdan 196 manata, əmək qabiliyyətli əhali üçün 201 manatdan 207 manata, pensiyaçılar üçün 157 manatdan 162 manata, uşaqlar üçün 170 manatdan 175 manata qaldırılması planlaşdırılır.

İclasda iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli məsələyə dair öz fikirlərini bildirib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Azərbaycan Respublikasında 2021-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi barədə (birinci oxunuş) danışıb. Qeyd edilib ki, ehtiyac meyarı ünvanlı sosial yardımı təyin etmək üçün hər il dövlət büdcəsi təsdiq olunarkən müəyyən edilən bir həddir. Qanunvericiliyə görə ilbəil bu hədd yaşayış minimumuna yaxınlaşmalıdır, sonra isə biz artıq bundan istifadə etməyəcəyik. Bu göstərici cari ildəkinə nisbətən, gələn il daha 10 manat və yaxud 6,2 faiz artaraq, gələn il üçün ehtiyac meyarı 170 manat məbləğində nəzərdə tutulur.

İclasda daha sonra "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib. Dəyişikliyə əsasən, "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) büdcəsi"nin adının dəyişdirilərək "Dövlət Sosial Müdafiə Fondunun büdcəsi" adlandırılması nəzərdə tutulur. Dövlət Sosial Müdafiə Fondu dövlətin mülkiyyətində olan, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən idarəçiliyi həyata keçirilən dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondudur. Qeyd edilib ki, "Sosial müdafiə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2019-cu il tarixli 912 nömrəli Fərmanı ilə Dövlət Sosial Müdafiə Fondunun "İcra hakimiyyəti orqanı" statusu dəyişdirilərək "Publik hüquqi şəxs"ə çevrildiyindən qanunamüvafiq dəyişiklik təklif olunur.

Komitə sədri deputat Tahir Mirkişili məsələ barədə səsləndirdiyi fikirlərə də aydınlıq gətirib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev mahiyyətcə bir-birinə yaxın olan növbəti üç məsələni birinci oxunuşda təqdim edib. Bildirilib ki, "Sosial sığorta haqqında" qanunda "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) büdcəsi"nin adının dəyişdirilərək "Dövlət Sosial Müdafiə Fondunun büdcəsi" adlandırılması nəzərdə tutulur.

"Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə əsasən, qanunun 19-cu maddəsi ləğv edilir. Həmin maddədə əks olunmuş pensiya əlavələrinin ləğv edilərək mövcud Azərbaycan Respublikası Prezidentinin təqaüdləri ilə birləşdirilməsi təklif olunur. Belə ki, bu maddədə nəzərdə tutulan şəxslərin əksər hissəsi (Azərbaycanın Milli qəhrəmanlarının, şəhid ailələrinin üzvləri, müharibə əlilləri, Böyük Vətən müharibəsi iştirakçıları, I dərəcə əlilliyi olan şəxslər və sair) Azərbaycan Respublikası Prezidentinin təqaüdləri ilə əhatə olunur və bu pensiya əlavələrinin ləğv edilərək, Prezident təqaüdlərinin artırılması həmin pensiya və Prezident təqaüdləri alan şəxslərin sosial rifahının yaxşılaşdırılmasına təsir edəcək, eyni zamanda bu növ sosial təyinatların elektron icrasını sürətləndirəcəkdir. Prezident təqaüdü ilə əhatə olunmayan şəxslər üzrə isə yeni təqaüdlərin təsis olunması nəzərdə tutulur. Eyni zamanda bu maddədə nəzərdə tutulan şəxslər Prezident təqaüdü ilə yanaşı, hüquqları yarandığı halda aylıq əsasda sosial müavinət və ya əmək pensiyası da alacaqlar.

Növbəti dəyişikliyə görə, sığorta davamiyyəti əmsalı əlilliyə görə əmək pensiyası üçün tələb olunan sığorta stajı aylarının sayının 200-ə olan nisbəti şəklində müəyyənləşdiriləcək. Hazırda qüvvədə olan mətndə ayların sayı 192-dir. Bu II və III qrup əlillərə əlilliyə görə əmək pensiyası təyinatı zamanı pensiya kapitalı tələbinin bir qədər də yumşaldılmasına və pensiya məbləğinin yüksəlməsinə gətirib çıxaracaq.

Qanuna edilən başqa bir dəyişikliyə əsasən, e-pensiya təyinatı sisteminin tətbiqi ilə fərdi şəxsi hesabında kapitalı olan şəxslərə 25 il staj amnistiyasının qüvvədə olma müddətinin 2023-cü ilin yanvarın 1-dək uzadılması təklif edilir. Həmin tarixdən sonra isə bu müddət hər il 1 il azaldılmaqla tətbiq ediləcək.

Qeyd edilib ki, qanunun 39.2-ci maddəsində əmək pensiyasından tutulmalı olan məbləğin maksimal məbləği (20 faiz) göstərilsə də, minimal məbləğ göstərilmədiyindən bəzi hallarda hətta məhkəmə qərarları ilə pensiya məbləğlərindən kifayət qədər kiçik məbləğlərin tutulmasına gətirib çıxarır. DSMF büdcəsinin maliyyə dayanıqlılığının təmin edilməsi, eləcə də vətəndaşa əsassız ödənilmiş məbləğlərin mümkün qədər tez büdcəyə bərpa edilməsi üçün tutulmanın minimum məbləğinin 10 faiz olması təklif edilib.

Musa Quliyev "Sosial müavinətlər haqqında" qanunda dəyişiklik edilməsi barədə sənədi təqdim edərək qeyd edib ki, layihə sosial müavinətlərin məbləğlərinin optimallaşdırılması və növlərinin unifikasiya edilməsi istiqamətində son illərdə aparılan islahatların davamı olaraq hazırlanıb. Qanuna əsasən, bəzi kateqoriya şəxslərin uşaqlarına (şəhid uşaqlarına, müharibə, 1990-cı il 20 Yanvar və Çernobıl AES əlillərinin uşaqlarına) sosial müavinətlər ödənilir ki, həmin müavinətlər 2021-ci il yanvarın 1-dən ləğv edilərək, onun məbləği müvafiq kateqoriya üzrə şəxslər üçün Azərbaycan Respublikası Prezidentinin təyin etdiyi təqaüdlərin artırılması yolu ilə həmin təqaüdün məbləğində nəzərə alınacaq. Bununla da ayrı-ayrı həssas kateqoriyalar üzrə sosial təminatların daha aydın və unifikasiya olunmuş şəkildə onlara çatdırılması, eləcə də qanunvericiliyin daha da sadələşdirilməsi təmin ediləcək.

Sonra iclasda büdcə zərfinə daxil olan sənədlər ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Daha sonra iclasda Azərbaycan Respublikası Milli Məclisinin 2021-ci il üçün xərclər smetası təqdim edilib. Sənədi təqdim edən Milli Məclisin işlər müdiri Firudin Hacıyev bildirib ki, Milli Məclisin və parlament Aparatının 2021-ci il üçün xərclər smetasının layihəsi qanunvericilikdə nəzərdə tutulmuş qaydalara uyğun olaraq, ştat cədvəlləri, inzibati binaların mühəndis qurğularına xidmət göstərən təşkilatlarla bağlanmış müqavilələr və proqnozlar əsasında tərtib edilib. Dövlət büdcəsində Milli Məclis və onun Aparatının saxlanılması üçün 42 milyon 270 min 400 manat vəsait nəzərdə tutulub. Xərclər smetasının ümumi dəyərinin 81,6 faizini əməkhaqqı fondu və əməkhaqqı ilə əlaqədar ayırmalar təşkil edir. Nəzərə çatdırılıb ki, VI çağırış Milli Məclisin deputatlarının xidməti otaqları kompüter dəstləri ilə və tələb olunan digər ləvazimatlarla təmin edilib. Bu işlər bu gün də davam etdirilir. İnzibati binaların bütün mərtəbələrində foyelərdə bir mərkəzdən idarə olunan videonəzarət və wi-fi sistemləri, həmçinin müasir tələblərə cavab verən server otağı avadanlıqlar təchiz edilərək istismara verilib. Qeyd edilib ki, Milli Məclisdə elektron sənəd dövriyyəsi və elektron kadr uçotu dövlət informasiya sisteminin yaradılması ilə əlaqədar olaraq xüsusi avadanlıqların alınaraq quraşdırılması nəzərdə tutulur. Parlamentin inzibati binalarında, iclas salonlarında, həyətyanı sahədə, avtoparkda cari təmir işləri mütəmadi olaraq davam etdirilir.

Komitə sədri Siyavuş Novruzov Milli Məclisin xərclər smetası ilə bağlı öz fikirlərini söyləyib.

Sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov palatanın 2021-ci il üçün xərclər smetasını təqdim edib. Bildirilib ki, xərclər smetasında təqribən 9,1 milyon manat həcmində vəsait nəzərdə tutulub. Bu, cari ilin büdcəsindən 3 faiz çoxdur. Nəzərdə tutulan vəsaitin bir hissəsi icbari tibbi sığorta ilə bağlı 2021-ci ilin dövlət büdcəsinə tutulma ilə əlaqədardır. Vəsaitin 92,2 faizi əməyin ödənilməsi ilə bağlı xərclərə sərf ediləcək. Nəzərdə tutulmuş vəsait palatanın növbəti il üçün funksional fəaliyyətini təmin etmək üçün kifayət qədər maliyyə təminatı verir.

Daha sonra "Siyasi partiyalar haqqında" qanuna dəyişikliklər edilməsi barədə qanun layihəsi ikinci oxunuşda müzakirə olunub. Milli Məclis sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli sənədə təklif edilən dəyişikliklərin mahiyyəti barədə məlumat verib. Qeyd edilib ki, müvafiq komitələrin birgə iclasında ikinci oxunuş zamanı parlamentdə təmsil olunan partiya təmsilçiləri tərəfindən sənədə irad bildirilməyib.

İclasda qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) məlumat verib. Bildirib ki, müharibə şəraiti dövründə, ondan sonrakı dövrdə də adıçəkilən nazirliyin əməkdaşları öz üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlirlər. Bu medalın təsis olunması Azərbaycanın orden və medallarına yeni bir töhfə olacaq.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Bununla Milli Məclisin iclası başa çatıb.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Doğum gününüz münasibətilə Sizi təbrik edir, möhkəm cansağlığı, Azərbaycan Respublikasının bundan sonra da inkişafı istiqamətində fəaliyyətinizdə uğurlar diləyirəm.

Müxtəlif məsələlər üzrə fikir və ideyalarımızı açıq mübadilə imkanı kimi qiymətləndirdiyim əvvəlki görüşlərimizi məmnunluq hissi ilə xatırlayıram. Ümid edirəm ki, qarşıdakı illərdə də ölkələrimiz arasındakı əhəmiyyətli münasibətləri inkişaf etdirməyə səy göstərəcəyik.

Serbiya-Azərbaycan münasibətlərinin qarşılıqlı hörmət və etimad ruhunda inkişafına verdiyiniz töhfəni yüksək qiymətləndirir, Kosovo və Metoxiya məsələsində Azərbaycanın prinsipial mövqeyinə, həmçinin beynəlxalq təşkilatlarda Serbiyaya göstərilən dəstəyə görə Sizə xüsusi minnətdarlığımı bildirirəm. Eyni zamanda bu xoş fürsətdən istifadə edərək Serbiyanın BMT-yə üzv ölkələrin ərazi bütövlüyü və suverenliyinə prinsipial sadiqliyini vurğulayıram.

Hər zaman səmimi dostların əhatəsində olmağınızı, fədakar əməyinizin nəticələrinin gələcək nəsillər tərəfindən minnətdarlıqla qarşılanmasını arzu edir, bir daha Sizə dərin ehtiramımı bildirirəm.

*Hörmətlə,*

***Aleksandr VUÇİÇ,***
***Serbiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi təbrik etməkdən şərəf hissi duyuram.

Sizinlə keçirdiyimiz görüşləri məmnunluqla xatırlayıram. Ümid edirəm ki, ölkənizi və xalqınızı əvvəlki illərdə olduğu kimi, müsbət istiqamətdə irəliyə doğru aparmaqda davam edəcəksiniz.

Cənab Prezident, icazə verin ümumi ailəmiz olan, Sizin strategiyanızı və rəhbərliyinizi dəstəkləyən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz diqqətə görə də Sizə minnətdarlığımı bildirim.

*Ən xoş arzularla,*

***Mladen İVANİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sabiq üzvü (2014-2018), 2002-2007-ci illərdə Bosniya və Herseqovinanın xarici işlər naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident, əziz qardaşım!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Sizin builki doğum gününüz həm də qardaş Azərbaycan xalqının qürurla qeyd etməli olduğu bir hadisədir. Çünki Sizin müdrik və qətiyyətli rəhbərliyinizlə Azərbaycan Ermənistanı məğlub edərək işğal altında olan torpaqlarını geri qaytarmaqla tarix yazıb.

Azərbaycanın inkişafı və əldə etdiyi uğurlar, eləcə də beynəlxalq səviyyədə daim artan nüfuzu Sizin yorulmaz səyləriniz və rəhbərliyiniz sayəsində mümkün olub.

Cənab Prezident, Sizin rəhbərliyinizlə Azərbaycan xalqının daha firavan və təhlükəsiz həyata inamı tükənməzdir.

Sizə möhkəm cansağlığı diləyir, zati-alinizin rəhbərliyi ilə qazanılan uğurların Azərbaycanı daha yüksək zirvələrə çatdırmasını arzulayıram.

*Dərin hörmətlə,*

***Hikmət ÇƏTİN,***
***Türkiyə Böyük Millət Məclisinin sabiq sədri (1997-1999), Türkiyənin sabiq xarici işlər naziri (1991-1994), Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi ən xoş arzularla təbrik edirəm.

Sizin çoxşaxəli qurucu fəaliyyətiniz, dövlətin mənafelərini qətiyyətlə müdafiə etmək bacarığınız Azərbaycanı güclü və müstəqil dövlətə çevirib, konstruktiv və uzaqgörən xarici siyasətiniz Sizə beynəlxalq arenada dərin hörmət və nüfuz qazandırıb.

Bu əlamətdar gündə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, uğurlar və Azərbaycan xalqının firavanlığı naminə yeni zəfərlər arzulayıram.

*Hörmətlə,*

***İlyas UMAXANOV,***
***Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası sədrinin müavini***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi Avrasiya Yəhudi Konqresinin liderləri adından və şəxsən öz adımdan təbrik edirəm. Cənab Prezident, Sizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik və bütün təşəbbüslərinizdə uğur arzulayıram.

Uzun illərdir ki, Azərbaycanda dini-etnik dözümlülük mühiti hökm sürür. Min ildən çoxdur ki, yəhudilər Azərbaycanda yaşayır və həmişə orada özlərini təhlükəsizlikdə, həqiqətən, dostların əhatəsində hiss edirlər.

Azərbaycanın Yəhudi İcmasının çoxsaylı nümayəndələri respublikanın siyasi, mədəni, sosial və iqtisadi həyatında fəal iştirak ediblər və edirlər. İsrail ilə Azərbaycan arasında yaranmış gözəl dövlətlərarası, iqtisadi və mədəni münasibətlər isə dünyanın bütün xalqları üçün nümunə ola bilər.

Müasir dünyanın universal dəyərlərinə açıqlığı ənənələr və tarixi irs ilə birləşdirən Azərbaycan tolerantlığın və sabitliyin əyani nümunəsidir və bu, Sizin böyük xidmətinizdir.

Cənab Prezident, icazə verin Sizi bu əlamətdar gündə bir daha təbrik edim, ən xoş arzularımı çatdırım. Sizə uzun ömür, möhkəm cansağlığı diləyirəm.

*Dərin hörmətlə,*

***Mixail MİRİLAŞVİLİ,***
***Avrasiya Yəhudi Konqresinin prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizə möhkəm cansağlığı, çoxmillətli Azərbaycan xalqının rifahı naminə qarşıda duran məsələlərin həllində yeni uğurlar, firavanlıq, sülh, xoş güzəran, səadət və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

***Ruslan AUŞEV,***
***İnquşetiya Respublikasının birinci prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə Sizə Qaz İxrac edən Ölkələr Forumu (GECF) adından səmimi təbriklərimi çatdırmaqdan şərəf hissi duyuram.

Dekabrın 25-də səfər etdiyimiz bu ərazilərdə uzun illərdən sonra Azərbaycan əsgəri xidmət aparır. Qalib ordunun qəhrəman əsgərləri indi fəxrlə Vətənin keşiyində dayanıblar. Hərbçilərlə söhbət zamanı bir daha şahid olduq ki, Azərbaycan əsgəri şanlı tarix yazaraq işğaldan azad etdiyi Vətən torpaqlarında xidmətini qələbə əhvali-ruhiyyəsi ilə yerinə yetirir. Qoşunlarımızın təminatının yüksək səviyyədə olması ilk baxışdan hiss edilirdi. Əsgərlər də bunu təsdiqlədilər.

# Azərbaycan Fövqəladə Hallar Nazirliyi Rusiyanın müvafiq qurumunun göndərdiyi humanitar yardımı qəbul edib

Dekabrın 24-də Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (FHN) Bərdə rayonu ərazisindəki dəmir yolu stansiyasında Rusiya Federasiyasının Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyi tərəfindən göndərilmiş növbəti humanitar yardım karvanını qəbul edib.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 9 vaqondan ibarət humanitar yardım əsasən tikinti materialları, texniki və məişət avadanlığından ibarətdir.

Qeyd edək ki, dekabrın 24-dək Rusiya Federasiyasının Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyi tərəfindən Azərbaycana ümumilikdə 54 vaqon və 25 yük avtomobilindən ibarət yardım göndərilib.

Gətirilən yardımın Vətən müharibəsi dövründə düşmənin mərmi və raket atəşləri nəticəsində döyüş bölgəsindən kənarda yerləşən yaşayış məntəqələrində ziyan çəkmiş mülki əhalinin əmlakının təmiri və bərpası işləri zamanı istifadə olunması nəzərdə tutulur.

Rusiya Federasiyasının Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyi tərəfindən həm əməkdaşlıq çərçivəsində göndərilən yardımlar, həm də sülhməramlılar üçün ünvanlanan yüklər Azərbaycan Respublikasının ərazisindən çatdırılır.

# Səfərbərlik üzrə hərbi xidmətə çağırılmış vətəndaşların mərhələli şəkildə tərxis edilməsi prosesinə başlanıb

**Azərbaycan Respublikası Prezidentinin "Səfərbərlik üzrə hərbi xidmətdən tərxisetmə haqqında" Sərəncamının Azərbaycan Ordusunda icrası ilə əlaqədar müdafiə naziri tərəfindən müvafiq əmr imzalanıb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov dekabrın 25-də keçirilən brifinqdə məlumat verib. Anar Eyvazov deyib ki, əmrə əsasən, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 sentyabr tarixli sərəncamı ilə hərbi xidmətə çağırılan hərbi qulluqçular dekabrın 25-dən 2021-ci il aprelin 15-dək mərhələli şəkildə səfərbərlik üzrə hərbi xidmətdən tərxis ediləcəklər. Hərbi qulluqçular yaş hədləri nəzərə alınmaqla, mərhələli şəkildə və tərxisetmə dövrlərinə uyğun qaydada tərxis olunacaqlar. Mətbuat katibi bildirib ki, zabit və gizirlərin pul təminatı xidmət etdikləri hərbi hissə üçün müəyyənləşdirilmiş artım əmsalları tətbiq olunmaqla təyin edildikləri vəzifələrə uyğun vəzifə maaşları, hərbi rütbələrinə görə maaşlar və digər əlavələrdən ibarətdir. Əsgər və çavuşlara isə eyni qaydada təyin edilmiş vəzifə maaşlarına əlavə olaraq 360 manat məbləğində aylıq müavinət verilir.

A.Eyvazov tərxisetmə ilə bağlı ictimaiyyətə mütəmadi olaraq məlumat veriləcəyini bildirib.

# Lüksemburq parlamentinin beynəlxalq hüquqazidd olan sənədlərlə çıxış etməsi bu qurumun qərəzli mövqeyindən xəbər verir

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Lüksemburq Parlamenti tərəfindən qəbul olunmuş qərəzli qətnamə ilə bağlı açıqlama yayıb.**

XİN-dən AZƏRTAC-a bildiriblər ki, açıqlamada deyilir: "Dekabrın 24-də Lüksemburq Böyük Hersoqluğunun Deputatlar Palatası tərəfindən Azərbaycanın işğaldan azad olunmuş Qarabağ bölgəsi ilə bağlı qərəzli qətnamə qəbul edilib. Parlamentin Xristian-Sosialist Siyasi Partiyasının ermənipərəst üzvü Klod Viseler tərəfindən irəli sürülən qətnamədə bölgədəki vəziyyətlə bağlı həqiqətlər təhrif olunur, Azərbaycan və Türkiyəyə qarşı tamamilə əsassız ittihamlar irəli sürülür.

Qətnamənin hər hansı hüquqi qüvvəsinin olmamasına rəğmən, Lüksemburq parlamentinin beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə zidd olan sənədlərlə çıxış etməsi, bölgədəki vəziyyəti öyrənmədən yanlış ittihamlar irəli sürməsi bu qurumun qərəzli mövqeyindən xəbər verir.

Lüksemburq qanunverici qurumunun üzvləri əgər bölgənin, o cümlədən Ermənistanın gələcəyini düşünsəydilər, o zaman 10 noyabr tarixli üçtərəfli Bəyanatın icrasını, bölgədə sülh, təhlükəsizik və rifahın yaradılması üçün yeni əməkdaşlıq imkanlarından faydalanmaq fikirlərini təşviq edərdilər. Görünən isə odur ki, Lüksemburq parlamentini bölgədəki uzunmüddətli münaqişənin həlli, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsi, onilliklərdir fundamental hüquqları pozulan məcburi köçkünlərin hüquqlarının bərpa olunması ilə yaranmış yeni vəziyyətlə yox, bölgə dövlətləri arasında ədavətin alovlandırılmasında maraqlıdır.

Vurğulamaq istərdik ki, bu kimi təxribat xarakterli və qərəzli sənədlərin qəbulu bölgənin beynəlxalq hüquq prinsiplərinə hörmət əsasında gələcək inkişafı və tərəqqisinə maneə ola bilməyəcək".

# Azərbaycan Gənclərinin IX Forumuna yekun vurulub

**Azərbaycan gənclərinin onlayn formatda keçirilən IX Forumu başa çatıb.**




Gənclər və İdman Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ötən üç il ərzində görülmüş işlərin hesabatını dinləmək, növbəti üç il üçün konsepsiyanı işləmək və təkliflər səsləndirmək məqsədilə keçirilən forum Vətən müharibəsinə həsr olunmuş videoçarxın nümayişi ilə başlayıb.

Daha sonra Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib və dövlət himni səsləndirilib. Sonra Azərbaycan Gənclərinin VIII Forumundan ötən müddətdə ölkəmizdə gənclər sahəsində həyata keçirilən tədbirlər barədə hazırlanan videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən gənclər və idman nazirinin müavini İntiqam Babayev IX Forumun ölkəmiz üçün əlamətdar tarixdə - Böyük Qələbəmizin qeyd olunduğu ildə keçirilməsinin xüsusi önəm daşıdığını bildirib. Nazir müavini qeyd edib ki, 2020-ci ildə gənclərimizin qazandığı ən böyük uğur Vətən müharibəsində göstərdikləri şücaət və Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazandığı tarixi qələbədir. Bildirilib ki, ötən konfransdan keçən müddətdə Gənclər və İdman Nazirliyi tərəfindən 241-i yerli, 33-ü beynəlxalq miqyaslı olmaqla 274 tədbir təşkil edilib. Ötən il 1308, 2020-ci ildə isə 95 əcnəbi gənc nazirliyin həyata keçirdiyi tədbirlərdə iştirak etmək üçün ölkəmizə səfər edib. Beynəlxalq əlaqələrin inkişafı, müxtəlif layihələrdə iştirak etmək üçün 2019-cu ildə 206, 2020-ci ildə isə 14 gənc xaricə ezam olunub.

Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin sektor müdiri Həmid Nəsibov, Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədr əvəzi, Milli Məclisin deputatı Ramin Məmmədov, Gənclər Təşkilatları Milli Şurasının sədri Azər Əliyev, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Pərviz Mirələmli və region gəncləri adından alim, hərbçi, qazi, həkim, yaradıcı gənclər çıxış edərək ölkəmizdə gənclər sahəsində həyata keçirilmiş tədbirlərdən söhbət açıb, perspektivlərdən danışıblar.

Forumun davamında iştirakçılar "Azərbaycanın yeni tarixinin yaradıcısı", "Gənclərin vətənpərvərlik tərbiyəsində yeni mərhələ", "Böyük Qayıdışda gənclərin vəzifələri", "Gənclərin sağlamlığı - xalqın sağlamlığı" mövzuları ətrafında çıxış ediblər.

Yekunda tədbirin qətnaməsi və IX Forum iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul edilib.

Qeyd edək ki, gənclərin geniş iştirakını təmin etmək məqsədilə forum ənənəvi olaraq iki mərhələdə keçirilib. Belə ki, dekabrın 2-18-də zona toplantıları, dekabrın 24-də isə respublika toplantısı baş tutub.

## BİLDİRİŞ

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi tərəfindən Sosial Xidmətlər Agentliyinin tabeliyindəki sosial xidmət müəssisələri üçün abadlıq xidmətlərinin satın alınması məqsədilə keçirilmiş müsabiqədə **"İNTER TRADE-AZ"** MMC qalib elan olunmuşdur.

Qalib təşkilatla 24 dekabr 2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi tərəfindən Sosial Xidmətlər Agentliyinin aparatı və filialları üçün portretlərin satın alınması məqsədilə keçirilmiş müsabiqədə **"DE TAL" MMC** qalib elan olunmuşdur.

Qalib təşkilatla 24 dekabr 2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərişıq" ASC tərəfindən "Bir mənbədən satınalma" metodu tətbiq edilməklə Zuğulba qəsəbəsində yerləşən obyektdə yeni ehtiyat fasiləsiz qida mənbəyi sisteminin yaradılması üçün avadanlıqların, mal-materialların və digər zəruri quraşdırma işlərinin satın alınması üzrə ümumi dəyəri ƏDV daxil 2 691 761,13 (iki milyon altı yüz doxsan bir min yeddi yüz altmış bir manat 13 qəpik) manat məbləğində **"Bestcomp Group" MMC** ilə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun "Daxili məhkəmə proseslərinin mərkəzləşdirilmiş vahid elektron uçotunun və idarəetmə sisteminin qurulması işlərinin" satın alınması məqsədilə 12.10.2020-ci il tarixdə elan etdiyi açıq tenderdə iddiaçıların daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmiş, qiymətləndirmənin nəticəsində **"Prosys" MMC** qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi tərəfindən Sosial Xidmətlər Agentliyinin tabeliyindəki sosial xidmət müəssisələrinə texniki yardımın göstərilməsi üçün avadanlıqların satın alınması məqsədilə keçirilmiş müsabiqədə **"NUR-SS" MMC** qalib elan olunmuşdur.

Qalib təşkilatla 24 dekabr 2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# "Azərenerji" Şuşaya 110 kV-luq yüksəkgərginlikli elektrik xətti çəkir

"Azərenerji" ASC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, Şuşa şəhərinin Azərbaycanın ümumi enerji sisteminə qoşulması və şəhərin dayanıqlı enerji ilə təchiz edilməsi üçün "Azərenerji" ASC tərəfindən Füzulidən Şuşaya 110 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xətti çəkilir.

Eyni zamanda işğaldan azad edilən ərazilərin böyük hissəsini mənbə olaraq elektrik enerjisi ilə təchiz edəcək Füzulidəki 110/35/10 kilovoltluq "Şükürbəyli" yarımstansiyası tam yenidənqurulmaqla yanaşı, enerjiötürmə qabiliyyəti artırılır. Bunun üçün mənbəyi "İmişli" yarımstansiyasından "Şükürbəyli" yarımstansiyasına 51 km məsafədə 110 kilovoltluq yüksəkgərginlikli əlavə xətt gətirilir. Həmçinin yarımstansiyanın ümumi gücü 50 MVA-dan 80 MVA-ya qaldırılır. Yarımstansiya müasir rəqəmsal avadanlıqların quraşdırılması ilə məsafədən idarəolunması təmin ediləcək.

Ən əsası isə hazırda paralel olaraq Füzulidəki "Şükürbəyli" yarımstansiyasından Şuşaya 110 kV-luq yüksəkgərginlikli elektrik xətti çəkilir. Ümumi uzunluğu 75 kilometr təşkil edən "Füzul-Şuşa" hava xətti 2 dövrəli olacaq ki, bu da qəza baş verərsə, fasilə yaranmaması üçün yükün bir xəttin üzərindən ikinci xəttin üzərinə keçirilməsinə imkan verəcək. Artıq hava xəttinin yüzə yaxın dayağı basdırılıb və 15 km məsafədə naqillər asılıb. Füzulinin Şükürbəyli, Xocavəndin Böyüktağlar, Şuşanın Daşaltı kəndinə keçən yüksəkgərginlikli hava xətti Şuşa şəhərindəki mövcud yarımstansiyaya daxil olacaq. Lakin bir müddət sonra hazırda Şuşada tikilməkdə olan 110/35/10 kilovoltluq yeni yarımstansiyada işlər başa çatan kimi xətt açılaraq ora montaj ediləcək. 110 kilovoltluq yeni xəttin çəkilişi ən çətin dağlıq, meşəlik relyefdə qarlı, dumanlı, yağışlı hava şəraitində növbəli iş prinsipi ilə həyata keçirilir.

110 kilovoltluq "Füzuli-Şuşa" xətti yaxın müddətdə istismara veriləcək və bununla da uzun illərdən sonra Şuşada öz işığımız yanacaq.

# "AzerGold" istiqrazlarının ilk faiz ödənişi həyata keçirilib

**24 dekabr 2020-ci il tarixdə "AzerGold" istiqrazlarının ilk rüblük faiz ödənişi həyata keçirilib. Ümumilikdə 200 min ABŞ dolları həcmində vəsait istiqraz sahibləri arasında bölüşdürülüb.**

Qurumun Mətbuat xidmətinin verdiyi məlumata görə, maliyyə bazarına təklif edilmiş istiqrazlar qeyri-neft sənayesinin liderlərindən biri olan "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin maliyyə mənbələrinin şaxələndirilməsi, yeni layihələrin icrasına yönəldilməsi ilə yanaşı, ölkənin qiymətli kağızlar bazarının inkişafına töhfə vermək, eləcə də vətəndaşlara mənfəətli və etibarlı investisiya imkanları yaratmaq məqsədinə xidmət edir.

Belə ki, yerli bankların xarici valyutada əmanətlər üçün təklif etdiyi illik faiz dərəcələrindən daha yüksək - 4 faiz gəlirlilik vəd edən "AzerGold" istiqrazları geniş xalq kütləsi üçün əlçatan investisiya alətidir. Ümumi emissiya həcmi 20 milyon ABŞ dolları olan istiqrazların bir



ədədi üzrə 100 ABŞ dolları nominal qiymətində ticarət olunması şirkətlərlə bərabər sıravi vətəndaşlarımız üçün də əlavə gəlir qazanmaq fürsəti yaradıb.

Təsadüfi deyil ki, investorlara 3 illik tədavül müddəti ərzində ildə 4 dəfə olmaqla, sabit gəlir qazandıran, tədavül müddətinin sonunda istiqrazların nominal dəyərini geri almaq hüququ verən "AzerGold" istiqrazlarının Bakı Fond Birjasında həm birinci, həm də ikinci tranş üzrə keçirilmiş hərracında tələb kifayət qədər yüksək olub, təklifi orta hesabla 2 dəfədən çox üstələyib. Konkret olaraq hər tranş üzrə 10 milyon ABŞ dolları həcmində yerləşdirilən istiqrazlara 1-ci hərracda 25.5 milyon, 2-ci hərracda 18 milyon ABŞ dolları məbləğində sifariş toplanıb.

Bir sözlə, hazırda ölkənin maliyyə bazarı üçün ən əlverişli şərtlərlə təqdim edilən investisiya alətlərindən hesab olunan "AzerGold" istiqrazları ölkəmizdə həyata keçirilən dayanıqlı iqtisadi siyasətin təzahürü kimi dövlətin həyata keçirdiyi maliyyə siyasətinin tərkib hissəsi olan qiymətli kağızlar bazarının inkişafı fonunda maliyyə alətlərinin müxtəlifliyini və maliyyə bazarlarının dərinliyini artırır, qeyri-neft sektorunun əhatəsini daha da genişləndirir.

Xatırladaq ki, "AzerGold" istiqrazlarının birinci və ikinci tranş üzrə hərracları cari ilin 24 sentyabr və 30 noyabr tarixlərində Bakı Fond Birjasında keçirilib. İstiqrazların orta ölçülmüş qiyməti 1-ci tranş üzrə 101.7 ABŞ dolları, 2-ci tranş üzrə isə 102.4 ABŞ dolları təşkil edib. "AzerGold" istiqrazları üzrə növbəti rüblük faiz ödənişi isə 2021-ci ilin mart ayında baş tutacaq.

## BİLDİRİŞ

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi tərəfindən Sosial Xidmətlər Agentliyinin aparatı və filialları üçün inventarların satın alınması məqsədilə keçirilmiş müsabiqədə **"DEKORİKO" QSC** qalib elan olunmuşdur.

Qalib təşkilatla 24 dekabr 2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Radio-Televiziya yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyi

### *açıq tender elan edir*

**2 dəst 4 kanallı HD video enkoderin və 2 dəst 8 portlu ASİ/İP multipleksorun (1+1 rejim) alınması**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 300,00 (üç yüz) AZN**
**Rekvizitləri**
**Hesab : AZ29AZPO91015461200420100081 (AZN)**
**VÖEN: 9900037841**
**Bank: "Azərpoçt" MMC PF1**
**Kodu: 691011**
**VÖEN: 9900037711**
**M/H: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməmiş, vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının analoji satınalma üzrə iş təcrübəsini təsdiq edən sənəd (analoji satılmış mallar, hüquqi şəxslərin adları qeyd edilmiş arayış);*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamənin notarial təsdiq edilmiş surəti);*
- *işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatları (konkret subpodratçının adı göstərilməklə).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **26.01.2021-ci il saat 15:00-dək,** tender təklifi və bank təminatını isə **03.02.2021-ci il saat 15:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **04.02.2021-ci il saat 15:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ

### *açıq tender elan edir*

Azərbaycan Respublikası ƏƏSMN tabeliyində Dövlət Sosial Müdafiə Fondunun yeni yaradılmış Arxiv və Sosial Ödəniş İşlərinin İnventarlaşdırılması üzrə Mərkəzi Filialı üçün "Arxiv quraşdırma və sənədlərin qeydiyyatı üzrə layihələrin idarə edilməsi", "Fiziki arxiv üzrə idarəetmə proqram təminatı və Arxiv sistemi üzrə inzibatçı" xidmətlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 500.00 (beş yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: - 142330**
**Büdcə səviyyəsinin kodu : - 4**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (notarial qaydada təsdiq olunmuş);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *bənzər işlərdə təcrübəsi barədə müqavilələr və görülmüş işlər barədə təsdiqedici sənədlər təqdim olunmalıdır;*
- *fərdi məlumatların informasiya ehtiyatlarının formalaşdırılması və informasiya sistemlərinin yaradılması;*
  *onlara xidmət göstərilməsi fəaliyyəti"nə dair lisenziyanın təsdiq edilmiş surəti;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Statistika Komitəsindən alınmalıdır. Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *bənzər layihələr üzrə iş təcrübəsini təsdiq etmək üçün belə layihələrin həyata keçirildiyi ən azı 3 (üç) müəssisə və təşkilatdan tövsiyə məktubu;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa və dövlət satınalmalarını hüquqi cəhətdən tənzim edən Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **19.01.2021-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **28.01.2021-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **29.01.2021-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# Britaniyada koronavirusun daha bir ştammı peyda oldu

## Virusun yeni versiyası CAR-dan gətirilib

Dünya COVID-19 pandemiyası ilə mübarizəni davam etdirir. SARS-CoV-2 koronavirusu yayılandan bəri planetin təxminən 80 milyon sakinində infeksiya aşkar edilmişdir. 1,73 milyon nəfərdən çox adam COVID-19-un qurbanı olmuş, 55,4 milyondan çox xəstə müalicə alıb sağalmışdır.

Artıq dünyanın bir sıra ölkələrində, o cümlədən ABŞ, Rusiya və İsraildə yeni tip koronavirusa qarşı peyvəndləmə başlamışdır. Diqqətəlayiq haldır ki, ilk peyvəndlənənlər dövlət başçıları olurlar. Yəqin ki, onlar bununla peyvəndin təsirli olacağına əminlik nümayiş etdirirlər. Bəzi dövlətlər peyvəndləmə prosesinə start verməyə tələsmir, başqa ölkələrdə başlamış işin nəticələrini gözləyir. Mütəxəssislər əmindirlər ki, Yer kürəsi əhalisinin hamısı peyvəndlənməlidir, əks təqdirdə, SARS-CoV-2-nin "dizini yerə qoymaq" mümkün olmayacaq. Odur ki, gələn ilin əvvəllərində dünyada kütləvi peyvəndləmə gözlənilir.

Bütün bunlara baxmayaraq, pandemiya hələ də tüğyan edir, yeni-yeni canlar alır. Dünyada yeni tip koronavirusun yayılmadığı region qalmayıb. Son günlərədək planetin epidemiyaya rast gəlinməyən yeganə qitəsi Antarktida idi. Artıq virus Antarktidaya da gedib çatmışdır. "Assoşieyted Press" agentliyinin Çili hakimiyyət orqanlarına istinadən verdiyi xəbərə görə, bu qitədə azı 58 infeksiya faktı qeydə alınmışdır. Antarktidakı Çili elmi-tədqiqat stansiyasında 36 nəfər infeksiyaya yoluxmuşdur. Onların 26-sı stansiya işçiləri, 10-u təmir işlərini yerinə yetirən ustalardır. Antarktidaya gedən Çili Hərbi Dəniz Qüvvələrinin təchizat gəmisinin göyərtəsində COVID-19-a 21 yoluxma halı aşkarlanmışdır. Başqa bir yoluxma hadisəsi isə Çili Hərbi Hava Qüvvələrinin Antarktidada yerləşən Vilya-las-Estrelyas qəsəbəsində qeydə alınmışdır.

Bu arada dünya koronavirusun əvvəlcə Böyük Britaniyada, sonra isə bir sıra digər ölkələrdə qeydə alınmış yeni VUI2020/12/01 ştammının özünü necə aparacağını narahatlıqla izləyir. Virusun bu növü haqqında ətraflı təsəvvür yaratmaq hələlik mümkün deyil. Alimlər hesab edirlər ki, VUI2020/12/01 haqqında dolğun məlumat əldə etmək üçün bundan sonra bir neçə gün də gözləmək lazımdır. Digər tərəfdən, Sinqapurda koronavirusun yeni variantına ilk yoluxma faktı qeydə alınmışdır. Bundan əlavə, artıq karantində olan 11 nəfərdən götürülmüş testin ilkin nəticəsi pozitiv çıxmışdır və ona görə də onların virusun yeni ştammına yoluxmasından söhbət gedə bilər.

VUI2020/12/01 özünü bəşərə hələ tam tanıtmamış Böyük Britaniyada SARS-CoV-2 koronavirusunun daha bir ştammı aşkara çıxarılmışdır. Ölkənin səhiyyə naziri Mətt Hənkokun verdiyi məlumata görə, yeni ştamm iki nəfərdə müəyyən edilmişdir. Onlar son bir neçə həftə ərzində Cənubi Afrika Respublikasında (CAR) olmuşlar. Nazir əlavə etmişdir, indi CAR-dan bu yaxınlarda qayıtmış britaniyalılar 10 gün özünütəcrid vəziyyətində qalmalı olacaqlar. O dəqiqləşdirmişdir ki, koronavirusun yeni Cənubi Afrika variantı ciddi narahatlıq doğurur, çünki insandan-insana daha sürətlə keçir və yəqin, Birləşmiş Krallıqda bir neçə gün əvvəl aşkarlanmış ştammdan daha güclü mutasiya etmişdir. Nazir vurğulamışdır ki, Porton-Daun laboratoriyasının ekspertləri yenicə aşkarlanmış virus növünü araşdıracaqlar. Nazir həmçinin məlumat vermişdir ki, Britaniya CAR-dan təyyarə reyslərinin qəbulunu dayandırmışdır.

Ekspertlər hesab edirlər ki, yeni tip koronavirusun mutasiyasında insan amili az rol oynamır. Belə ki, COVID-19-un müalicəsi metodları xəstəliyə səbəb olan virusun yeni ştamlarının meydana çıxmasına şərait yaradır. Lakin onun mutasiyaları bəşəriyyət üçün, çox güman, faydalı prosesdir, çünki immunitetin formalaşmasına kömək edir. Məsələn, ABŞ-dakı Corc Meyson Universitetinin sistemlər biologiyası məktəbinin professoru Ança Baranova bildirmişdir ki, SARS-CoV-2 koronavirusunun ötən həftə Böyük Britaniyada aşkarlanmış yeni, daha yoluxucu növü (VUI2020/12/01), ehtimal ki, xəstəliyin müalicəsində istifadə olunan dərmanların təsirindən qaynaqlanmışdır. Professorun fikrincə, koronavirus infeksiyasının müalicəsi zamanı tətbiq edilən immunosupressiv preparatlar virusun bədəndə qalması müddətini uzadaraq onun mutasiyasına şərait yaradar.

Koronavirusun ən yeni ştammının yayılması Birləşmiş Krallıqdan başqa digər ölkələrdə hələ qeydə alınmamışdır. Ümumdünya Səhiyyə Təşkilatı hesab edir ki, təzə ştamların peyda olması koronavirusla mübarizə taktikasında dəyişikliyə gətirib çıxarmamalıdır. İnsan özünü müdafiə etmək üçün artıq elan olunmuş qaydalara riayət etməlidir.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirus infeksiyasından 4359 nəfər sağalıb, 1703 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasından 4359 nəfər müalicə olunaraq sağalıb, 1703 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 36 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 211 min 764 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 160 min 245 nəfər müalicə olunaraq sağalıb, 2416 nəfər vəfat edib. Aktiv xəstə sayı 49103 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 129 min 291 test aparılıb. Dünənki test sayı isə 13300-dür.



## "Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Ofisin təmir, tikinti və quraşdırılma işlərinin görülməsi" ilə bağlı keçirilən kotirovka sorğusu elanının nəticəsinə dair

### B İ L D İ R İ Ş

"Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Ofisin təmir, tikinti və quraşdırılma işlərinin görülməsi" ilə bağlı 13 avqust 2020-ci il tarixdə keçirdiyi kotirovka prosedurunun qalibi bütün tələbləri təmin etdiyi üçün **"Yurd Tikinti 2002" MMC** olmuşdur.

***Tender komissiyası***

## "Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Beynəlxalq fəaliyyət ilə bağlı digər xərclər" üzrə keçirilən kotirovka sorğusu elanının nəticəsinə dair

### B İ L D İ R İ Ş

"Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Beynəlxalq fəaliyyət ilə bağlı digər xərclər" üzrə 15 iyul 2020-ci il tarixdə keçirdiyi kotirovka prosedurunun qalibi bütün tələbləri təmin etdiyi üçün **"Peachline" MMC** olmuşdur.

***Tender komissiyası***

## "Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "1C proqram təminatı üzrə işlər və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı" xidmətlərin görülməsi üçün keçirilən kotirovka sorğusu elanının nəticəsinə dair

### B İ L D İ R İ Ş

"Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "1C proqram təminatı üzrə işlər və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı" xidmətlərin görülməsi üçün 07 iyul 2020-ci il tarixdə keçirdiyi kotirovka prosedurunun qalibi bütün tələbləri təmin etdiyi üçün **"Evrodizayn" QSC** olmuşdur.

***Tender komissiyası***

## "Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Foto və video xidmətlərinin görülməsi" ilə bağlı kotirovka sorğusu elanının nəticəsinə dair

### B İ L D İ R İ Ş

"Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Foto və video xidmətlərinin görülməsi" ilə bağlı 13 avqust 2020-ci il tarixdə keçirdiyi kotirovka prosedurunun qalibi bütün tələbləri təmin etdiyi üçün Ruslan Qorbunov Gennadiyeviç olmuşdur.

***Tender komissiyası***

## "Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Bioloji Pasportun tədqiqatı və müvafiq rəyin verilməsi" üzrə keçirilən kotirovka sorğusu elanının nəticəsinə dair

### B İ L D İ R İ Ş

"Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Bioloji Pasportun tədqiqatı və müvafiq rəyin verilməsi" üzrə 15 iyul 2020-ci il tarixdə keçirdiyi kotirovka prosedurunun qalibi bütün tələbləri təmin etdiyi üçün Həsənova Aypara Baxşeyiş qızı olmuşdur.

***Tender komissiyası***

## "Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Tədbirlərin keçirilməsi ilə" bağlı kotirovka sorğusu elanının nəticəsinə dair

### B İ L D İ R İ Ş

"Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Tədbirlərin keçirilməsi" ilə bağlı 22 iyul 2020-ci il tarixdə keçirdiyi kotirovka prosedurunun qalibi bütün tələbləri təmin etdiyi üçün **"Royal Travel" MMC** olmuşdur.

***Tender komissiyası***

## "Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Lisenziyaların və İT avadanlıqların satın alınması. Xüsusi proqram təminatının yaradılması və tətbiqi ilə" bağlı xidmətlərin görülməsi üçün keçirilən kotirovka sorğusu elanının nəticəsinə dair

### B İ L D İ R İ Ş

"Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Lisenziyaların və İT avadanlıqların satın alınması. Xüsusi proqram təminatının yaradılması və tətbiqi" ilə bağlı xidmətlərin görülməsi üçün 15 iyul 2020-ci il tarixdə keçirdiyi kotirovka prosedurunun qalibi bütün tələbləri təmin etdiyi üçün **"Technofusion" MMC** olmuşdur.

***Tender komissiyası***

## "Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Antidopinq sahəsinə aid sənədlərin tərcüməsi ilə birgə tibb, hüquq, əczaçılıq, ədəbi sənədlərin və digər materialların tərcümə işlərinin yerinə yetirilməsi" xidmətlərinin alınması ilə bağlı keçirilən kotirovka sorğusu elanının nəticəsinə dair

### B İ L D İ R İ Ş

"Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Antidopinq sahəsinə aid sənədlərin tərcüməsi ilə birgə tibb, hüquq, əczaçılıq, ədəbi sənədlərin və digər materialların tərcümə işlərinin yerinə yetirilməsi" xidmətlərinin alınması ilə bağlı 15 sentyabr 2020-ci il tarixdə keçirdiyi kotirovka prosedurunun qalibi keyfiyyətli tərcümə nümunələrini təqdim etdiyi və digər tələbləri təmin etdiyi üçün Nailə Əmirbəyova Elxan qızı olmuşdur.

***Tender komissiyası***

### B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi 21 sentyabr 2020-ci il tarixdə **www.etender.gov.az** Portalında, 24 sentyabr 2020-ci il tarixdə "Azərbaycan" qəzetində dərc edilmiş elan ilə əlaqədar bildirir ki, Bakı Dövlət Regional Peşə Təhsili Mərkəzinin maddi-texniki bazasının beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə tədris vəsaitlərinin, digər malların (iş və xidmətlərin) satın alınmasına dair keçirilmiş açıq tenderdə Tender komissiyasının qərarı ilə **"Universitas-İnternational" MMC və "Nur-SS" MMC** konsorsiumu müsabiqənin qalibi elan olunmuşdur.

Qalib təşkilatlarla satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Çap işləri və Mətbəə materiallarının hazırlanması" üzrə keçirilən kotirovka sorğusu elanının nəticəsinə dair

### B İ L D İ R İ Ş

"Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Çap işləri və Mətbəə materiallarının hazırlanması" üzrə 15 iyul 2020-ci il tarixdə keçirdiyi kotirovka prosedurunun qalibi bütün tələbləri təmin etdiyi üçün **"Max Print" MMC** olmuşdur.

***Tender komissiyası***

### B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi 21 sentyabr 2020-ci il tarixdə **www.etender.gov.az** Portalında, 24 sentyabr 2020-ci il tarixdə "Azərbaycan" qəzetində dərc edilmiş elan ilə əlaqədar bildirir ki, yeni peşə və kvalifikasiya standartlarının hazırlanması və mövcud peşə və kvalifikasiya standartlarının yenilənməsi xidmətlərinin satın alınmasına dair keçirilmiş açıq tenderdə Tender komissiyasının qərarı ilə **"Global Legal" MMC** müsabiqənin qalibi elan olunmuşdur..

Qalib təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Təşkilati texnika və məişət avadanlığının alınması" ilə bağlı keçirilən kotirovka sorğusu elanının nəticəsinə dair

### B İ L D İ R İ Ş

"Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsinin "Təşkilati texnika və məişət avadanlığının alınması" ilə bağlı 14 sentyabr 2020-ci il tarixdə keçirdiyi kotirovka prosedurunun qalibi bütün tələbləri təmin etdiyi üçün **"Royal Concierge" MMC** olmuşdur.

***Tender komissiyası***

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası 2021-ci il üçün kondisioner və havalandırma avadanlıqlarına servis xidmətinin təşkili işinin satın alınması məqsədilə

### *kotirovka sorğusu keçirir*

Maraqlananlar (+99412) 564-09-00 telefon nömrəsi vasitəsilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 25.12.2020-ci il saat 14:00-dan 29.12.2020-ci il saat 11:00-dək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, Fətəli Xan Xoyski prospekti, 98**
**Telefon: (+99412) 564-09-00 E-mail: info@sport.edu.az**

***Tender komissiyası***

## "Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu" xarici ölkələrdə sənaye və qida məhsulları ilə bağlı bazar araşdırmasının aparılması üçün göstəriləcək xidmətlərin satın alınması məqsədilə

### *təkliflər sorğusu keçirir*

Təkliflər sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) və digər zəruri sənədlər 28 dekabr 2020-ci il saat 17:30-dək "Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu"nun Bakı şəhəri Neftçilər prospekti, 32 ünvanında yerləşən ofisinə təqdim edilməlidir.

Əlaqələndirici şəxs - Fuad Cəfərov (telefon: (012) 598 01 47).

Zərflər 29 dekabr 2020-ci il saat 10:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları "Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu"nun Bakı şəhəri, Neftçilər prospekti, 32 ünvanında yerləşən ofisinə yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası 2021-ci il üçün qazanxana və nasosxanaya servis xidmətinin təşkili işinin satın alınması məqsədilə

### *kotirovka sorğusu keçirir*

Maraqlananlar (+99412) 564-09-00 telefon nömrəsi vasitəsilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 25.12.2020-ci il saat 14:00-dan 29.12.2020-ci il saat 12:00-dək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, Fətəli Xan Xoyski prospekti, 98**
**Telefon: (+99412) 564-09-00 E-mail: info@sport.edu.az**

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Müdafiə Sənayesi naziri Mədət Quliyev Azərbaycan Cüdo Federasiyasının Daimi Fəaliyyət Komissiyasının sədri

**SAHİB İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Nəzəri və praktiki iqtisadiyyat kafedrasının professoru

**TELMAN QURBAN OĞLU BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu və kollektivi iş yoldaşları dosent Zakir Əlizadəyə qardaşı

**ƏHMƏD ƏLİZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7368
Sifariş 3004
Qiyməti 40 qəpik